


# Unudulmaz Bakı

## Azərbaycan Qran-prisi azarkeşlər üçün möhtəşəm məqamlarla yadda qalır

**Dünyada avtomobil həvəskarlarının əsas bayramı hesab edilən "Formula-1" Azərbaycan Qran-prisinə ölkəmizin evsahibliyi etməsinin qürur və sevincini yaşamaqdayıq. Belə bir möhtəşəm yarışın sayca 7-ci dəfə Azərbaycanda keçirilməsi dünyaya növbəti dəfə azərbaycanlıların mehribanlığı, qonaqpərvərliyi, qədim tarixi, füsunkar təbiəti, mentaliteti, sürətlə inkişaf edən müasir ölkə ilə tanışlıq fürsəti verib.**






Çoxlu sayda siyasi, mədəni, idman və digər tədbirlərin ən mötəbər ünvanına çevrilən respublikamız növbəti beynəlxalq tədbirə layiqincə evsahibliyi etməklə dünyanın diqqətini Bakıya cəlb edib. "Formula-1" Azərbaycan Qran-prisi ilə bağlı Bakıya gələn hər kəs Azərbaycanın inkişafını, xalqımızın qonaqpərvərliyini, zəngin mədəniyyətini öz gözləri ilə görür. Bütövlükdə bu mötəbər tədbir Azərbaycanı növbəti dəfə beynəlxalq aləmə daha yaxından tanıdır.

Hər kəs Azərbaycanda keçirilən sürət yarışına hazırlıq işlərinin çox yüksək səviyyədə aparıldığının şahidinə çevrildi. Bunu aprelin 28-də start götürən ilk yarış günündə aydın şəkildə görmək olurdu. İlk növbədə, Azneft dairəsindən Dəniz vağzalına kimi qurulan bütün əyləncə zonaları, "F-1" şəhərciyi bütün bilet sahiblərinin üzünə qapılarını açıb. Dünəndən etibarən tamaşaçılar onlar üçün qurulmuş möhtəşəm əyləncə məkanlarından istifadə edirlər.

Tədbirlər isə hər kəs üçün inanılmaz dərəcədə maraqlı və unudulmayacaq məqamlarla yadda qalır. Üçgünlük tribuna biletlərinin sahibləri günorta saatlarında Pitleyn yürüşü edərək, "Formula-1" həyatını daha yaxından izləmək şansına malik olurlar. Tamaşaçılar komandaların qarajlarında dünyanın ən innovativ yarış avtomobillərinin mühəndis və mexaniklər tərəfindən necə sazlanması prosesini yaxından izləmək imkanını əldə edirlər.



Bakı bulvarının əsas səhnəsində sürətsevərlər öz qəhrəmanları - dünyaca tanınmış pilotlarla avtoqraf sessiyalarında görüşdülər. Bu isə azarkeşlər üçün əsl hədiyyə oldu.

"Formula-1"in Azərbaycan nümunəsi yüksək səviyyədə hazırlıq, qonaqpərvərliklə dünyanı heyran edərək, paytaxtımızda yarışan ən məşhur pilotların qəlbində dostluq, anlaşma, sevgi məşəli yandırıb.

Bu arada Azərbaycan Qran-prisinin start düzülüşü bəlli olub. "Mercedes" komandasının heyətində Luis Hamilton və Corc Rassel, "Ferrari" komandasında Karlos Sayns və Şarls Lekler, "Williams"ın heyətində Aleksander Albon və Loqan Sarjent yarışırlar. "Red Bull Racing" komandasında Serxio Peres, Maks Ferstappen, "Alpha Tauri"də Nik de Vris və Yuki Tsunoda, "Alpine"da isə Pyer Qasli ilə Esteban Okon mübarizə aparırlar. Bundan başqa, "Alfa Romeo"nun heyətində Valtteri Bottas və Cou Quanju, "McLaren"də Oskar Piastri və Lando Norris yürüşdə iştirak edirlər. Pilotlar Niko Hulkenberq və Kevin Maqnussen "Haas", Fernando Alonso və Lans Stroll "Aston Martin" komandasının idman şərəfini qoruyurlar. Yarışı "Ferrari"nin pilotu Şarl Lekler qalib kimi başa vurub. "Red Bull Racing"in üzvləri Maks Ferstappen və Serxio Peres ilk üçlüyü tamamlayıblar.

Beləliklə, ölkəmizə gələn turistlər, dünyanın aparıcı pilotları, avtomobil mütəxəssisləri Azərbaycanla daha yaxından tanış oldular, onun inkişafını gözləri ilə gördülər. Azərbaycan bu yarışa yüksək səviyyədə evsahibliyi etməklə bir daha sübut etdi ki, beynəlxalq tədbirlərin keçirilməsi üçün əsas ünvanlardan biridir.



Azərbaycan.- 2023.-30 aprel.- S.11.